AVRASİYA ƏMƏKDAŞLIQ FONDU

Open Government Initiative Government - Civil Society Dialogue Platform
AZERBAIJAN

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

# Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi

*Sabit Bağırov,*

*Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu*

# Təqdimatın içindəkiləri

- Strateji Yol Xəritələrinə ehtiyac haradan yarandı?
- Son 12 ildə yürüdülən iqtisadi siyasətin 4 dövrü;
- Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsinin:
  - ✓ hədəfləri və prioritetləri;
  - ✓ indikatorları;
  - ✓ maliyyə mənbələri;
  - ✓ koordinasiya və rəhbərlik;
  - ✓ strateji uyğunlaşdırma və maliyyələşdirmə;
  - ✓ maraqlı tərəflərin səfərbər edilməsi

# Soz 12 ildə yürüdülən iqtisadi siyasətin  4 dövrü:

1. **Arxayınlıq dövrü** – 2-ci minilliyin birinci onilliyinin ortasından 2014-cü ilin sonuna qədər;

2. **Narahatçılığın artımı dövrü** – 2014-cü ilin sonundan 2015-ci ilin sentyabrına qədər;

3. **Biznesin ayrı-ayrı problemlərinin həllində fəallığın artımı dövrü** – 2015-ci ilin oktyabrından 2016-cı ilin fevralı daxil olmaqla;

4. **Sistemli islahatların güclənməsi dövrü** – 2016-cı ilin martından başlayaraq

# 2-ci minilliyin birinci onilliyinin ortasından 2014-cü ilin sonuna qədər dövrdəki müşahidə edilən arxayınlığın əsas səbəbləri:

**İqtisadi səbəblər.** Yüksək neft gəlirləri ilə təmin edilən:

- ÜDM-in yüksək artım templəri;
- Dövlət büdcəsinin artımı;
- Cari Əməliyyatlar Hesabında profisit;
- Dövlət sərmayə yatırımlrının (investisiyaların) artımı;
- Aşağı səviyyəli inflyasiya;
- Əhali gəlirlərinin artımı;
- Xarici borclanmanın aşağı səviyyəsi;
- Xarici valyuta ehtiyatlarının artımı;
- Əhali yığımının artımı

**Siyasi səbəblər**: opponentlik institutlarının (siyasi partiyalar, QHT-lər, media) zəifliyi

# Arxayınlığın və iqtisadiyyatın şaxələnməsi islahatlarında ləngliyin nəticəsi:

İqtisadiyyatın dünya neft bazarı konyukturundan yüksək dərəcəli asıllığı

# Milli valyutanın ucuzlaşdırılması (devalvasiyası)

**Məqsəd**: büdcə gəlirlərinin təmin edilməsi

1-ci devalvasiya – 21 fevral 2015-ci il. Manatın məzənnəsi 0.78-dən 1.05 AZN/USD;

2-ая devalvasiya – 21 dekabr 2015-ci il. Manatın məzənnəsi 1.05-dən 1.55 AZN/USD

# Qeyri-hökumət ekspert iqtisadi Şuranın yaradılması – 17.01.2016






# 2015-ci ilin oktyabrından 2016-cı ilin fevralını əhatə edən dövr: biznes mühitinin yaxşılaşdırılmasına yönələn vacib institusional islahatların başlanması

**<u>Bəzi mühüm qərarlar:</u>**

- 19.10.2015 – PF*: xüsusi icazələrin verilməsi sisteminin yaxşılaşdırılması;
- 20.10.2015 – Qanun: sahibkarlıq subyektlərinin yoxlamalarının 2 illik dayandırılması;
- 26.10.2015 – PF: yoxlamaların tənzimlənməsinə dair əlavə tədbirlərin həyata keçirilməsi;
- Dekabr, 2015 – PS**: Gömrükdə brokerlərin fəaliyyətlərinin dayandırılması;
- 18.01.2016 – PF: investisiyaların təşviqinə dair əlavə tədbirlər;
- 03.02.2016 – PF: Appelyasiya Şuralarının yaradılması;
- Digər qərarlar

* Prezidentin Fərmanı

** Prezidentin Sərəncamı

# Ölkə Prezidentinin 10 yanvar 2016-cı il tarixli nitqindəki bəzi qeydlər

1) ... biz daha səmərəli işləməliyik və iqtisadi inkişaf templərini daxili resurslar hesabına, düşünülmüş siyasət, islahatlar, o cümlədən **struktur islahatları** nəticəsində təmin etməliyik.

2) Xüsusilə **qeyri-neft sektorununn** inkişafı böyük əhəmiyyət daşıyır.

3) ...xarici investisiyaları daha böyük həcmdə cəlb etməliyik. ...xüsusilə **qeyri-neft sektoruna**.

4) Dövlət qurumları isə - həm mərkəzi dövlət orqanları, həm yerlərdəki icra orqanları onlar (investorlar) üçün bütün şəraiti yaratmalıdırlar. Onların işinə **müdaxilə etməməlidirlər**, əksinə, onları təşviq etməlidirlər və **mütəmadi qaydada məlumat verməlidirlər ki, hər bir bölgə üzrə nə qədər investisiya qoyulmuşdur,...**

5) Biz ölkəmizin valyuta ehtiyatlarını qoruyuruq və qorumalıyıq.

6) Gömrük rəsmiləşdirilməsi və bütün idxal-ixrac əməliyyatları tam şəffaf aparılmalıdır. İnhisarçılığa qarşı daha da ciddi mübarizə aparılmalıdır.

7) Biz nağd pul dövriyyəsi sferasını azaltmalıyıq.

# Sistemli islahatların gücləndirilməsi dövrü: mart 2016-dan başlayaraq

**Hökumətin əsas fəallıq istiqamətləri**:

- İqtisadiyyatın əsas sektorlarına dair islahat proqramlarının hazırlanması (Mart-Noyabr 2016);
- Fiskal problemlərin həllinə yönələn islahatların davamı;
- Biznes-mühitin yaxşılaşması istiqamətində islahatların davam etdirilməsi;
- Maliyyə sferasında sabitliyin təmin edilməsi islahatları;

# Mart-Dekabr 2016: islahat proqramlarının hazırlanması

**<u>Hökumətin mühüm qərarları:</u>**

- 16.03.2016 – PS: iqtisadiyyatın əsas sektorlarına dair strateji yol xəritələrinin əsas istiqamətləri;
- 20.04.2016 – PF: İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin yaradılması;
- 06.12.2016 – PF: Strateji Yol Xəritələrinin təsdiqi (12 istiqamət üzrə);

# 2016-cı ildə Strateji Yol Xəritələrinin hazırlanması prosesinə pararel olaraq önəmli qərarların qəbul edilməsi müşahidə edilirdi

04.03.2016 – PF: gömrük sistemində islahatlara dair əlavə tədbrlər haqqında;

15.03.2016 – Qanun: lisenziyalar və icazələr haqqında;

20.04.2016 – PF: Lisenziyalar haqqında qanunun tədbiqinə dair;

19.05.2016 – PF: bəzi tikinti obyektlərinə icazələrin verilməsi sisteminin sadələşdirilməsi;

19.05.2016 – PF: özəlləşdirmənin təkmilləşdirilməsi barədə;

21.05.2016 – PF: gömrükdə «yaşıl dəhliz»in istifadəsinin yaxşılaşdırılması;

# 2016-cı ildə Strateji Yol Xəritələrinin hazırlanması prosesinə pararel olaraq önəmli qərarların qəbul edilməsi müşahidə edilirdi

13.07.2016 – PS: biznesin mühiti əlverişliyinin və ölkənin beynəlxalq reytinqlərinin yüksəldilməsinə dair əlavə tədbirlər;

23.09.2016 – PF: «ABAD» sisteminin yaradılması;

05.10.2016 – PF: ixracın inkişafına dair tədbirlər;

07.12.2016 – PF: «Tik-İdarə et-Təhvil ver» modelinin tədbiqinə dair;

07.12.2016 – PF: kredit büroları haqqında qanunun tədbiqinə dair;

15.12.2016 – Qanun: nağdsız hesablaşmalar haqqında;

06.12.2016: Prezidentin Fərmanı ilə 12 Strateji Yol Xəritələri təsdiq edilmişdir.

Bunlardan biri: Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsidir

# Kiçik Sahibkarlıq məvhumu (Nazirlər Kabinetinin, 4 İyun 2015 Qərarı)

| | İşçilərin sayı | İllik Dövriyyə (AZN) |
|---|---|---|
| Kiçik | < 50 | ≤ 200 min |
| Orta | 50 – 250 | ≤ 600 min |
| İri | > 250 | > 600 min |

# AB Təsnifatı (2003)

| | Number of Employees | Annual turnover | or | The balance cost of assets |
|---|---|---|---|---|
| **Medium-sized** | < 250 | 50 million euros | | **43 million euros** |
| **Small** | < 50 | 10 million euros | | **10 million euros** |
| **Micro** | **< 10** | **2 million euros** | | **2 million euros** |

# Turkey's definitions

| | Number of Employees | Annual turnover |
|---|---|---|
| Medium | 50 – 249 | ≤ 40 milyon TL ($24mln) |
| Small | 10 – 49 | ≤ 8 million TL ($4,8mln) |
| Micro | 1 – 9 | ≤ 1 million TL ($600,000) |

# Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. 2020-ci llədək strateji baxış

*Azərbaycanda KOS-un inkişafı üzrə 2020-ci ilədək strateji baxış biznes mühitinin daha da təkmilləşdirilməsi, KOS subyektlərinin maliyyə vəsaitlərinə və satış bazarlarına çıxışının asanlaşdırılması və biznes bilik və bacarıqlarının artırılması ilə rəqabətqabiliyyətliliyinin təmin olunmasına və iqtisadi inkişafdakı rolunun artırılmasına nail olmaqdır.*

# Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. 2025-ci ilədək uzunmüddətli baxış

*Azərbaycanın 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı KOS subyektlərinin rəqabət qabiliyyətinin daha da artırılmasına, gündəlik istehlak malları ilə təminatın əsasən KOS subyektləri vasitəsilə həyata keçirilməsinə, KOS subyektlərinin ÜDM və məşğulluqda payının əhəmiyyətli dərəcədə artırılmasına nail olmaqdır.*

# Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış

*2025-ci ildən sonrakı dövr üçün hədəf baxış Azərbaycanda ÜDM-in ən azı 60 faizinin KOS hesabına təmin edilməsinə, qlobal dəyər zəncirlərinə qoşulmuş yerli KOS şəbəkəsinin yaradılmasına nail olmaqdır*

# Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Hədəf indikatorları.

KOS sahəsində prioritetlərin həyata keçirilməsi nəticəsində aşağıdakılar proqnozlaşdırılır:

- KOS-un ÜDM-də payının 15 faizə çatdırılması;
- KOS-un məşğulluqda payının 20 faizə qədər artırılması;
- KOS-un ölkənin qeyri-neft ixracında payının 10 faizə çatdırılması;
- 2020-ci ildə real ÜDM-in 1 milyard 260 milyon manat artması;
- 2020-ci ildə 34240 yeni iş yerinin yaradılması.

# Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. KOS-un inkişafı ilə bağlı icra göstəriciləri:

- sənaye klasterləri daxilində istehsal olunan məhsullarda KOS subyektlərinin payının 40 faizə çatdırılması;
- KOS subyektləri arasında mübahisələrin məhkəməyəqədər həlli göstəricilərinin 2 dəfə yaxşılaşdırılması;
- KOS subyektlərinin bərpa (iflas vəziyyətindən) tempinin 4 faizə çatdırılması;
- daşınar əmlakın banklar tərəfindən təminat predmeti kimi qəbul edilməsi göstəricisinin 2 dəfə artırılması;
- lizinq əməliyyatlarının ÜDM-də payının 2 faizə çatdırılması;

# Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. KOS-un inkişafı ilə bağlı icra göstəriciləri (davamı):

- qeyri-neft ixracında 5 faizlik artım əldə olunması;
- 3–5 model müəssisənin yaradılması;
- 5 yeni biznes inkubatorunun yaradılması;
- il ərzində ən azı 25 startap layihəsinin başlanması;
- il ərzində ən azı 1000 kiçik və orta sahibkar üçün xüsusi təlimlərin təşkil edilməsi;
- 3 innovasiyayönümlü regional klasterin yaradılması.

# Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Strateji məqsədlər

- KOS-un inkişafı üzrə daha əlverişli biznes mühitinin formalaşdırılması;
- KOS-un rəqabətqabiliyyətliliyinin və iqtisadiyyatdakı rolunun artırılması;
- ölkədə istehsal olunan iş və xidmətlərin bütün mümkün hissəsinin, xüsusilə intellektual hissəsinin KOS-un və nəticədə innovasiyaların inkişafı yolu ilə yaradılmasına nail olunması;
- KOS-un məşğulluğun təmin edilməsindəki rolunun artırılması;
- əsas istehlak mallarının KOS subyektləri tərəfindən istehsalına nail olunması;
- KOS subyektlərinin ixrac etdikləri malların ölkənin ümumi ixracındakı payının artırılması.

# Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Strateji hədəflər və prioritetlər

**Strateji hədəf 1. KOS fəaliyyəti üçün biznes mühitinin və tənzimləyici bazanın yaxşılaşdırılması**

- *Prioritet 1.1. Mərkəzləşdirilmiş KOS agentliyinin yaradılması*
- *Prioritet 1.2. KOS üzrə qanunvericilik bazasının təkmilləşdirilməsi və qanunvericiliyin təsiri analizinin tətbiq edilməsi*
- *Prioritet 1.3. Dövlət-özəl tərəfdaşlığının dərinləşdirilməsi*
- *Prioritet 1.4. Rəqabət mühitinin təkmilləşdirilməsi*
- *Prioritet 1.5. KOS subyektlərinin fəaliyyətində yoxlama və lisenziyalaşdırma mexanizmlərinin təkmilləşdirilməsi və vergi islahatlarının davam etdirilməsi*

# Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Strateji hədəflər və prioritetlər (davamı)

**Strateji hədəf 1. KOS fəaliyyəti üçün biznes mühitinin və tənzimləyici bazanın yaxşılaşdırılması**

- *Prioritet 1.6. KOS üzrə xüsusi sənaye zonalarının və klasterlərin yaradılması*
- *Prioritet 1.7. Dövlət-özəl əməkdaşlığının genişləndirilməsi, KOS subyektlərini təmsil edən qurumların gücləndirilməsi*
- *Prioritet 1.8. KOS subyektləri arasında mübahisələrin alternativ həlli imkanlarının təkmilləşdirilməsi*
- *Prioritet 1.9. KOS subyektlərinin müəyyənləşdirilməsi meyarlarının bütün dəstək tədbirlərində tətbiq edilməsi, statistik məlumatların sistemləşdirilməsi*

# Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak malla-rının istehsalına dair Strateji Yol Xəritəsi. Azərbaycanda maliyyə bazarlarına çıxış *(ÜDM-də payı, faizlə)*



# Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Strateji hədəflər və prioritetlər

**Strateji hədəf 2. KOS subyektlərinin maliyyə resurslarına sərfəli və səmərəli çıxışının təmin edilməsi**

*Prioritet 2.1. Fəaliyyətə xitam verilməsi və müflisləşmə məsələlərinin həlli sahəsində islahatların aparılması*

*Prioritet 2.2. KOS subyektləri ilə bağlı kreditlərə zəmanət fondunun yaradılması*

*Prioritet 2.3. Əmlak məsələləri üzrə fəaliyyətin təkmilləşdirilməsi və maliyyə əlçatanlığının artırılması*

*Prioritet 2.4. Azərbaycanda lizinq və alternativ maliyyə alətləri (forvard, fyuçers, opsion, svop, faktorinq və s.) bazarının inkişaf etdirilməsi ilə KOS subyektlərinin maliyyəyə çıxışının asanlaşdırılması*

# Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Strateji hədəflər və prioritetlər

**Strateji hədəf 3. KOS subyektlərinin beynəlmiləlləşdirilməsi və xarici bazarlara çıxış imkanlarının artırılması**

*Prioritet 3.1. KOS subyektlərinin beynəlxalq ticarət əməliyyatları üçün maliyyə xidmətlərinin genişləndirilməsi və birbaşa xarici investisiyaların təşviqi*

*Prioritet 3.2. Ayrı-ayrı sektorlar üzrə ixrac assosiasiyalarının yaradılması*

# Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Strateji hədəflər və prioritetlər

**Strateji hədəf 4. KOS subyektlərinin bilik və bacarıqlarının artırılması, qabaqcıl təcrübələrin tətbiqinin sürətləndirilməsi**

*Prioritet 4.1. Biznes inkubatorları və startap layihələrinin inkişaf etdirilməsi, model müəssisələrin yaradılması*

*Prioritet 4.2. KOS subyektlərinin təlim və tədris imkanlarının artırılması, qabaqcıl təcrübələrin tətbiqinin sürətləndirilməsi*

*Prioritet 4.3. Sahibkar düşüncə tərzinin təşviqi*

*Prioritet 4.4. Qadın sahibkarlığının inkişaf etdirilməsi*

# Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Strateji hədəflər və prioritetlər

**Strateji hədəf 5. İnnovasiyaların təşviqi, KOS subyektləri üçün araşdırma və inkişaf fəaliyyətlərinin genişləndirilməsi**

*Prioritet 5.1. Milli innovasiya sisteminin təkmilləşdirilməsi*

*Prioritet 5.2. Kiçik və orta sahibkarların fəaliyyətini stimullaşdıran innovasiya infrastrukturunun formalaşdırılması*

# Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Maliyyələşdirmə mexanizmləri

Müəyyən edilmiş strateji hədəflərə nail olmaq üçün 2020-ci ilədək 700 milyon manat həcmində investisiya tələb olunacağı proqnozlaşdırılır. Bu məbləğ aşağıdakı mənbələr hesabına təmin ediləcək:

- dövlət büdcəsi;
- büdcədənkənar fondlar;
- Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti;
- yerli büdcələr;
- mülkiyyət formasından asılı olmayaraq yerli idarə, müəssisə və təşkilatların vəsaitləri;
- birbaşa xarici investisiyalar;
- ölkənin bank sisteminin kreditləri və qrantlar;
- beynəlxalq təşkilatların və xarici dövlətlərin kreditləri, texniki və maliyyə yardımı;
- qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

# Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Koordinasiya və rəhbərlik

- Strateji Yol Xəritəsi üçün yüksək siyasi səviyyədə qərarların qəbul edilməsinin sürətləndirilməsi mexanizmi yaradılacaqdır;
- Bütün işlər tədbirlər planına uyğun aparılacaq;
- Strateji Yol Xəritəsinin icra olunmasına nəzarətin aparılması, yaranan problemlərin həll olunması və ya qurumlar arasında əlaqələndirmənin düzgün təşkili məqsədilə müvafiq koordinasiya qurumu ("delivery unit") müəyyən ediləcəkdir. Qurumun əsas işi tədbirlərin effektiv icrası məqsədilə zəruri qurumlar, proseslər və texnologiyalar arasında koordinasiyanın təşkili olacaqdır

# Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Maraqlı tərəflərin səfərbər edilməsi

Həm dövlət, həm də qeyri-dövlət sektorundan yerli və beynəlxalq tərəfdaşlar Strateji Yol Xəritəsinin icrası prosesinə cəlb olunacaqdır.

# TƏŞƏKKÜRLƏR

*Sabit Bağırov*

*Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu*

*bagirov.sabit@gmail.com*

*www.edf.az*

*www.sahibkarol.biz*